# Distant təhsildə musiqi terapiyası

**Ələkbərova Nəcibə (BMA)**
**Fakultə: Musiqi tarixi və nəzəriyyəsi**
**İxtisas: musiqi texnologiyaları**
**Kurs: II**
**Elmi rəhbər: BMA-nın professoru, sənətşünaslıq üzrə elmlər doktoru, əməkdar incəsənət xadimi Tariyel Məmmədov**

Dünyada, o cümlədən Azərbaycanda musiqi terapiyası hələ qədim zamanlardan tətbiq olunur. Bizim tədqiqat işimiz distant təhsildə musiqi terapiyasına həsr olunmuşdur. Musiqi terapiyası, musiqi ilə müalicə mənasını verir. Digər mənada isə tibb ilə musiqi arasındakı əlaqədir. Azərbaycan musiqişünaslığında musiqi terapiyasına dair elmi işlər meydana gəlsə də (Azər Şahbazov), distant təhsildə musiqi terapiyası tədqiq olunmamışdır. Azərbaycanda əsasən reabilitasiya dövründə müalicə alan uşaqların müalicəsində məhz musiqidən istifadə olunması, kifayət qədər geniş yayılması onun müxtəlif növləri, əhatəli tədqiqini zəruri edir. Bu baxımdan dissertasiya işimizin mövzusu aktualdır. Tədqiqatın əsas məqsədi musiqi ilə müalicənin effektinin yüksək olmasını, məhz distant şəkildə həyata keçirilməsinin nəticəsini araşdırıb üzə çıxarmağa çalışmaqdır.

Musiqi terapiyasının distan tətbiqini araşdırmaq üçün ekspedisiyada olduq. Həm müalicə alan uşaqlardan müsahibə almaqla, həm də məhz distant şəkildə terapiyanı təcrübədən keçirərək nəticə əldə etdik.

Musiqinin təsir spesifikası orqanizmin və psixikanın aktivləşdirilməsi ilə əlaqədardır.

Musiqi ağrı hisslərini azaltmaq, əzələ tonusunu bərpa etmək, ümumi psixi-emosional tonusu artırmaq imkanına malikdir. Buna görə də müalicə dövründə musiqi terapiyası müalicə alanlar üçün güclü təsir göstərmişdir. Bu şəraitdə musiqinin beyinin sağ yarımkürəsinə birbaşa təsiri məsələsi ortaya çıxmışdır. Lakin, belə nəticəyə gəlmək olar ki, musiqinin distant şəkildə terapiya üsulu kimi istifadəsi effektlidir, reabilitasiya dövrünü tezləşdirir, müalicə alanların sağalma prosesinin tezləşməsində rolu böyükdür.

Təbii ki, işimizdə distant təhsilin və musiqi terapiyasının tarixinə, Azərbaycanda yayılması məsələlərinə də toxunmuşuq. Sahə araşdırması zamanı talassemiya, qan xərçəngi, daun sindromlu və müxtəlif xəstəliklərlə mübarizə aparan uşaqlarda musiqi terapiyasından distant şəkildə tətbiq olunması diqqət mərkəzində olmuş və bu proses zamanı istifadə olunan müasir musiqi texnologiyalarına, müxtəlif kompyuter proqramlarından musiqi saytlarına qədər şübhəsiz ki, müalicəvi musiqi əsərlərinə yer vermişik.